1_Layout 1 29.08.2022 15:31 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 17 (631)

31 avqust 2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# Azərbaycan bayrağı Laçın şəhərində də dalğalanır

**“Azərbaycan” qəzetinin müxbiri Rəşad Baxşəliyevin müəllifi olduğu “Azərbaycan bayrağı Laçın şəhərində də dalğalanır” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

30 ildən sonra Laçın şəhərində Azərbaycan bayrağı dalğalanır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin Qüdrətli Ordusunun şəhəri tam nəzarətə götürməsi şəhidlərimizin ruhunu şad etməklə yanaşı, hər bir azərbaycanlının ürəyini dağa döndərdi. Azərbaycan əsgərinin ayaq səsləri düşmənin bağrını yardı.

Beləliklə, dünən işğaldan azad olunmuş daha bir ərazimizdə Azərbaycanın nəzarəti bərpa olundu. Əlbəttə ki, bunun böyük tarixi əhəmiyyəti var. Bu tarixi gerçəklik bir daha onu göstərdi ki, tezliklə o bayraq Xankəndidə, Xocalıda da dalğalanacaq.



### Laçın necə işğal edilmişdi?!

Birinci Qarabağ müharibəsində Laçının ələ keçirilməsi Ermənistanın Qarabağa yolunun tamamilə açılması demək idi. Hələ 1924-cü ildə “DQMV” yarandıqdan sonra Laçın rayon statusu almışdı.

1988-ci ildən sonra ermənilərin Laçınla bağlı gizli niyyətləri üzə çıxmağa başladı. O vaxt artıq ermənilər Laçında bir neçə mülki şəxsi qətlə yetirmişdilər. Məhz buna görə də Laçın Rayon Polis Şöbəsinin nəzdində ilk xüsusi təyinatlı milis bölüyü yaradılmışdır. Həmin bölük Laçın rayonunun Ermənistanla sərhəd kəndlərində azərbaycanlıları ermənilərin ehtimal edilən hücumlarından qorumağa cavabdeh idi.

O dövrdə ən strateji rayon sayılan Laçının təhlükəsizliyini təmin etməkdən ötrü Laçınla Şuşanın arasında yerləşən Qaladərəsi, Göytala və digər kəndlərdən separatçı ermənilərin çıxarılması üçün plan hazırlanır. 1990-1991-ci illərdə xüsusi təyinatlı milis dəstəsi, Şuşa Milis Şöbəsi və Daxili Qoşunların iştirakı ilə keçirilən əməliyyat nəticəsində həmin kəndlərdə yaşayan erməni separatçıları tutulur, münaqişə ocağına çevrilən kəndlər boşaldılır. Laçın-Şuşa yolunun üstündə yerləşən erməni kəndlərindən hücumların qarşısı alınır.

Lakin paytaxtda gedən hakimiyyət davası, hərc-mərclik, ölkə rəhbərliyinin Qarabağda baş verən proseslərə etinasız yanaşması nəticəsində vəziyyət dəyişir, rayonlarımız bir-birinin ardınca itirilməyə başlanır. 1992-ci il mayın 8-də Şuşanı işğal etdikdən sonra düşmənin silahlı qüvvələri Ermənistanla birbaşa əlaqə yaratmaq üçün Şuşa-Laçın-Zabux yolunu açmağa başlayırlar. Burada söhbət Şuşa ilə Laçın arasındakı 44 kilometrlik məsafədən gedirdi. Artıq Laçın şəhəri Turşsu və Gorus, Tex və Xınatsax istiqamətindən Qrad və toplarla vurulurdu.

Mayın 16-17-si Laçında qalan digər hərbçilər də ərazini tərk etməyə başlayırlar. Bütün bunlar isə Laçının süqutu demək idi.

On minlərlə insanın yaşadığı 125 kəndin, 1 şəhərin, 1 qəsəbənin taleyi belə həll olundu. 101 ümumtəhsil məktəbi, 217 mədəniyyət mərkəzi, 140 səhiyyə obyekti, 200-dən çox IX-XV əsrlərə aid tarixi abidə erməni işğalçılarının tapdağı altında qaldı.

### “Laçın dəhlizi” - “nəfəs borusu”

Laçın rayonu Azərbaycanın cənub-qərbində, Kiçik Qafqaz sıra dağlarına məxsus olan Qarabağ dağ silsiləsinin suayırıcı ilə Qarabağ yaylası arasında yerləşir. Bu ərazinin böyük hissəsi düzənlik və yaylalardan ibarətdir. Diyarın təbii-coğrafi mövqeyi olduqca əlverişlidir.

Qədim yurd yerimiz Laçının işğal edilməsi ermənilərin uzun illər ərzində qurduğu ən vacib planlardan biri olub. Çünki Laçının ələ keçirilməsi Ermənistanın Qarabağa yolunun tamamilə açılması demək idi.

“Laçın dəhlizi” - Gorus - Şuşa - Kəlbəcər - Qubadlı arasında yerləşən strateji baxımdan çox əhəmiyyətli coğrafi ərazidir. Ərazi etibarilə təbii resurslarla zənginliyi bu dəhlizin əhəmiyyətini daha da artırır.

Bu dəhliz vasitəsilə terrorçu Ermənistan böyük miqdarda narkotik tranziti həyata keçirirdi. Yəni uzun illər boyu fəaliyyət göstərən bu dəhliz Ermənistanı Qarabağın dağlıq hissəsinə birləşdirən yeganə təchizat və təminat yolu olaraq, müharibənin ilk mərhələsində separatçılar arasında “nəfəs borusu” rolunu oynayırdı.

### İlham Əliyevin humanistliyi qarşılığında əsl erməni xisləti yenə özünü göstərdi

Torpaqlarımızda qeyri-qanuni məskunlaşan ermənilərin ərazilərimizdən tam çıxarılması 30 il çəkdi. Bu müddət ərzində təbii sərvətlərimizi yağmalayan ermənilər azərbaycanlıların dədə-baba yurdlarındakı tarixi izlərini belə silməyə cəhd etdilər. Amma niyyətləri başlarında çatladı. Əsl erməni xislətlərini isə əraziləri tərk edərkən bir daha nümayiş etdirdilər.

Öncə onu deyək ki, Qalib Komandan kimi İlham Əliyev yenə də humanizm prinsiplərinə sadiq qalaraq ermənilərə ərazilərimizi tərk etmələri üçün avqustun 5-dək vaxt vermişdi. Lakin onlar bu vaxtın avqustun 25-dək uzadılmasını xahiş etdilər və Azərbaycan Prezidenti yenə də humanizm ənənəsinə sadiq qaldı. Bu müddətdən istifadə edən mənfurlar müxtəlif bəyanatlar səsləndirməklə ərazilərimizdən çıxmamağa çalışırdılar. Hətta Ermənistandakı keçmiş hərbi xunta rejiminin bir neçə tör-töküntüsü də gəlib həmin şəxslərə “dəstək” verirdi.

30 ildən sonra ermənilər torpaqlarımızdan rədd olub getdilər. Amma getmədən öncə yenə də xislətlərini nümayiş etdirdilər. Yaşadıqları mənzillərə od vurub yandırdılar. Elə zənn etdilər ki, azərbaycanlılar 30 ildən sonra qayıdıb onların donuz saxladıqları daxmalarda qalacaqlar.

Dünya İlham Əliyevin cəmi ilyarıma Qarabağda, Şərqi Zəngəzurda yaratdığı xariqələrdən danışır, Azərbaycanın öz gücünə qurduğu modern “ağıllı kənd”, “ağıllı şəhər” layihəsini nümunə göstərir. Terrorçunun, uşaq qatillərinin, işğalçının bir əşyasını belə görmək istəmirik. İstədiyimiz yalnız erməni ünsürlərinin torpaqlarımızdan kökünün kəsilməsidir.

### Qalib Komandan qətiyyətinin təcəssümü, vaxtında verilən qərarların icrası

Bu gün artıq Laçın şəhərində Azərbaycan bayrağı dalğalanır və bundan sonra da əsrlər boyu öz torpaqlarımızda bərq vuracaq. Laçından çıxmaları üçün cəmi 10 saat vaxt verilən və bu torpaqları gözüyaşlı tərk etmək məcburiyyətində qalan soydaşlarımız indi sevinc gözyaşları ilə geri dönüş gününü səbirsizliklə gözləyirlər. Artıq Prezidentin tapşırığı ilə Laçın şəhəri, Zabux və Sus kəndlərinin nümayəndələri ilə görüşlər keçirilib və onlar dədə-baba yurdlarına dönmək üçün hazır olduqlarını vurğulayıblar.

Tezliklə Laçın şəhərində həyat yenidən qaynayacaq, İlham Əliyev ermənilərin yandırdıqları mənzillərin yerində düşmənə gözdağı verən möhtəşəm şəhər salacaq. Heydər Əliyev Fondu erməni barbarlarının izini itirmək istədikləri tarixi-mədəni və dini abidələrimizi yenidən bərpa edib, xalqın ixtiyarına verəcək.

Dünən Laçın şəhərinin tam boşaldılması və ordumuzun şəxsi heyətinin əraziyə yerləşdirilməsi ilə bağlı paylaşım edən Ali Baş Komandan bu münasibətlə xalqa təbrik ünvanlayıb: “Bu gün, avqustun 26-da biz - azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!”

Göründüyü kimi, artıq Azərbaycan Ordusunun Laçın şəhərindəki ayaq səsləri bütün Qarabağda, Şərqi Zəngəzurda eşidilir və düşmənin bağrı yarılır. Tezliklə Zəngəzur dəhlizinin açılması da zəfərimizin davamı olaraq tarixə yazılacaq.

# Nazir V.Eyvazov Şəkidə vətəndaş qəbulu və sıra baxışı keçirib







Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov avqustun 25-də Şəki Şəhər-Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Daxili işlər naziri qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib, önünə gül dəstəsi qoyub.

Sonra şəhər-rayon polis şöbəsinin inzibati binasında Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarından gələn 162 vətəndaşı qəbul edən nazir onların müraciətlərini dinləyib, problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Qəbula gələn vətəndaşlar onların ərizə və müraciətlərinə operativ yanaşılmasına, o cümlədən, göstərilən diqqətə və həssas münasibətə görə dövlətimizin başçısına minnətdarlıq ediblər.

Bölgəyə səfəri çərçivəsində general-polkovnik V.Eyvazov polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında Şəki şəhəri və ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib.

Xidmətə qəbulun şərtlərinə uyğun gələn 87 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 23 nəfəri Vətən müharibəsi iştirakçısı, 2 nəfəri isə şəhid ailələrinin üzvüdür.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 29.08.2022 15:29 Page 1



## "KOBRA" XÜSUSİ TƏYİNATLI DƏSTƏSİ HƏRBİ HİSSƏNİN ÖNCÜLLƏRİ SIRASINDADIR



Silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsi, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması zamanı qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaq xüsusi təyinatlı dəstənin əsas vəzifələridir. Bu isə hər bir xüsusi təyinatlıdan, ilk növbədə, yüksək döyüş hazırlığı, möhkəm hərbi intizam və iradə tələb edir. Bu mənada 67987 saylı hərbi hissənin "Kobra" şərti adı verilmiş xüsusi



təyinatlı dəstəsinin hərbi qulluqçuları xidmətdə sayıqlıq və əzmkarlıq nümayiş etdirirlər.

Dəstə komandirinin müavini-qərargah rəisi mayor Nemət Ağayev bildirdi ki, şəxsi heyətin döyüş təlimi Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqla yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı diqqətdə saxlanılan əsas məqamlardandır.

Dəstənin hərbi qulluqçularının Vətən müharibəsindəki şücaətini göz önündə canlandıran zabitimiz məhz həmin günlərdə illərlə qazanılan təcrübənin döyüş meydanında əks olunduğunu, keçirilən təlimlərin o zaman fayda verdiyini deməyi də unutmadı: "44 günlük Vətən müharibəsində hərbi hissənin xüsusi təyinatlıları qəhrəmanlıq nümunələri göstərərək milyonlarla insanın sevgisini, rəğbətini qazandılar. Torpaqlarımızın azad olunması ilə nəticələnən Vətən müharibəsində dəstənin şəhidlik zirvəsinə yüksələn 9 nəfər igid döyüşçüsü – baş leytenant Kamran Kazımov, baş çavuşlar Vüqar Cəfərov, Əsgər Əhmədov, çavuşlar Orxan Ömərov, Ceyhun Rzayev, Tərlan Eyniyev, Hilal İmanzadə, Elvin Məmmədov, kiçik çavuş Mikayıl Mikayılzadə xalqımızın yaddaşında əbədi yaşayacaqlar. Bu müharibədə xüsusi təyinatlılar düşmənin xeyli sayda canlı qüvvəsini məhv edib, onlarla zirehli texnikasını, şəxsi heyət və silah-sursat daşıyan avtomobilini sıradan çıxarıb, müdafiə postlarını, atəş nöqtələrini dağıdıblar. Döyüşlər zamanı xüsusi təyinatlılardan 25 nəfər yaralanıb. Bu döyüşçülər yaralansalar da, döyüşü davam etdirib, qorxu bilmədən, cəsurluqla sonacan düşmənin üzərinə həmlə ediblər".

Müharibə bitsə də, hər zaman olduğu kimi, xidmətin layiqincə aparılması, məşğələlərin tam keyfiyyətlə təşkil olunub keçirilməsi nəzarətdə saxlanılır.

Mayor N.Ağayev şəxsi heyət arasında yüksək döyüş hazırlığı və intizam nümayiş etdirən hərbi qulluqçulardan baş çavuş İxtiyar Hüseynov, baş çavuş Miradil İsmayılov, çavuş Etimad Müseyibov və çavuş Mirzəhmət Məmmədovun adlarını çəkdi.

**kapitan Şahin Cəfərzadə**

## ŞƏXSİ HEYƏTİN PEŞƏKARLIĞININ ARTIRILMASI NƏZARƏTDƏ SAXLANILIR

99713 saylı hərbi hissənin komendant bölüyü döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayır, həvalə olunan tapşırıqları dərhal yerinə yetirir. Bölük komandiri baş leytenant Tural Nəsirli bildirdi ki, hərbi hissənin döyüş bayrağı, anbarları, avtomobil və zirehli texnika parkının mühafizə və müdafiəsi komendant bölüyünün şəxsi heyəti tərəfindən təmin olunur. Bölük döyüş xidmətinin yerinə yetirilməsində yüksək peşəkarlıq nümayiş etdirir.

Komandir kimi baş leytenant T.Nəsirli bu istiqamətdə üzərinə düşən vəzifələri məsuliyyətlə icra edir. O, 2016-cı ilin sentyabr ayından Daxili Qoşunların sıralarında xidmət edir. 2021-ci ilin avqust ayından hazırki vəzifədədir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur, həm özünün, həm də tabeliyində olan şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi, hərbi intizamının möhkəmləndirilməsi üçün səylə çalışır.

Bölük komandiri bildirdi ki, xidməti vəzifələrinin yerinə yetirilməsi zamanı şəxsi heyətin üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçuların sağlamlığı, mənəvi-psixoloji durumu hər zaman diqqətdə saxlanılır. Əlavə etdi ki, komandir heyəti tərəfindən verilən bütün tapşırıqlar dəqiq və vaxtında yerinə yetirilir, sağlam kollektivin yaradılması prioritet məsələlərdəndir.

O, şəxsi heyətin bilik və bacarıqlarının artırılması məqsədilə nəzəri və praktiki məşğələlərin keçirildiyini, bu məşğələlərin hərbi qulluqçuların müəyyən olunmuş normativləri keyfiyyətlə yerinə yetirmələrinə, atış vərdişlərinin artırılmasına xidmət etməklə yanaşı, onlarda əzmkarlıq, dözümlülük kimi xüsusiyyətlərin formalaşmasında da mühüm rol oynadığını söylədi.









Bölüyün şəxsi heyəti, eyni zamanda, Daxili Qoşunların Baş İdarəsində xidmətə cəlb olunur. Bundan öncə təsdiq olunmuş plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçulara təlimat keçirilir, müvafiq nizamnamənin maddələri çatdırılır, fərdi qaydada hər biri ilə söhbət aparılır, mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır.

Postların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, həmçinin, asudə vaxtın səmərəli təşkili - müxtəlif növ ədəbiyyatların, dövri mətbuatın mütaliə olunması, stolüstü oyunların oynanılması diqqətdə saxlanılır.

Baş leytenant T.Nəsirli vəzifələrinin icrasında fərqlənən hərbi qulluqçulardan gizir Mahir Məmmədov, çavuş Mansur Qasımov, baş əsgərlər Elnur Dadaşlı, Rəcəb İsrailzadə, əsgərlər Seymur Məmmədov və Nəcəf Muradovun adlarını qeyd etdi.

**kapitan Xədicə Hacızadə**

# Tədrisin keyfiyyəti və mütəxəssislərin hazırlığı diqqət mərkəzindədir

Daxili Qoşunların 25032 saylı hərbi hissəsində tədrisin yüksək səviyyədə təşkil olunması üçün hər bir şərait yaradılıb. Hərbi hissədə nəzərə çarpan səliqə-sahman, aparılan abadlıq və yenidənqurma işləri hərbi qulluqçuları qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirməyə ruhlandırır.



Hərbi hissə komandiri polkovnik-leytenant İlkin Gözəlov hərbi hissənin ötən dövrdəki fəaliyyəti barədə söz açaraq bildirdi ki, cari ilin iyun ayının 12-də hərbi hissənin yaradılmasının 30-cu ildönümü qeyd edildi. 1992-1994-cü illərdə hərbi hissənin şəxsi heyəti respublikamızın ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak edib. 1999-cu ildə hərbi hissəyə tədris təyinatlı vəzifələr həvalə olunub. Ötən müddət ərzində hərbi qulluqçuların peşəkarlıqlarının artırılması üçün təlim prosesinin təkmilləşdirilməsi, maddi tədris bazasının gücləndirilməsi istiqamətində effektiv tədbirlər həyata keçirilib.



Artıq 30 ildir ki, fəaliyyət göstərən hərbi hissə Daxili işlər naziri və Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının diqqət və qayğısı sayəsində əsaslı şəkildə yenilənib, maddi-texniki təchizatı yaxşılaşıb.

Bu günlərdə sözügedən hərbi hissədə xidməti ezamiyyətdə olduğum zaman bunun bir daha şahidi oldum. Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Bilal Hacıyevlə söhbət zamanı məlum oldu ki, tədris təyinatlı hərbi hissədə kiçik komandirlər, kiçik mütəxəssislər (rabitəçi, sürücü və aşpazlar) hazırlanır və qoşunların hərbi hissələrinə göndərilir.

### Təcrübəli və bacarıqlı kiçik komandirlərin hazırlanmasına ciddi fikir verilir

Hərbi hissədə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən bölmələrdən biri kiçik komandirlər hazırlayan tədris bölüyüdür. Bölüyün əsas təyinatı hərbi qulluqçulara manqa komandirinin vəzifələrinin, tabelikdə olan əsgərlərlə təlimin, sıra hazırlığının və tərbiyə işinin aparılması qaydalarının öyrədilməsidir. Kiçik komandirlərin metodiki ustalığının, təşkilatçılıq və idarəetmə qabiliyyətinin artırılması da bölüyün funksional vəzifələrinə aiddir.

Kiçik komandirlər hazırlayan tədris bölüyünün komandiri-baş müəllim baş leytenant İbrahim Quliyevin məşğələlərin keyfiyyətli şəkildə təşkili və keçirilməsində fəaliyyəti danılmazdır. Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan komandir tabeliyində olan hərbi qulluqçulara qarşı tələbkarlığı və ciddiliyi ilə seçilir. Hər zaman peşəkarlıq vərdişlərinin təkmilləşdirilməsi üçün çalışır. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan baş leytenant İ.Quliyev düşünür ki, kiçik komandirlərin hazırlanmasında əsas məqam tədris proqramının dərindən mənimsənilməsidir. Belə ki, tədris müddəti ərzində məşğələlərdə fəal olan, daha çox öyrənməyə can atan və bütün biliklərini təcrübədə tətbiq etməyi bacaran hərbi qulluqçular yekun imtahanda yaxşı nəticələr göstərirlər.

Kiçik komandirlərin hazırlanması kursu müvafiq təhsil proqramının tələblərinə uyğun aparılır.

Bölük komandiri bildirdi ki, tədris proqramı bitdikdən sonra hərbi qulluqçular təcrübə keçmək üçün Daxili Qoşunların 25031 və 12318 saylı hərbi hissələrinə ezam olunaraq, manqa komandiri kimi fəaliyyət göstərirlər. Təyin olunmuş müddət bitdikdən sonra bütün hərbi qulluqçular hərbi hissəyə qayıdır və Daxili Qoşunların Baş İdarəsi tərəfindən təsdiq olunmuş imtahan komissiyası təcrübəçilərin əldə etdikləri biliklərin hansı dərəcədə mənimsədiklərini yoxlamaq məqsədilə imtahanlar qəbul edir. Təbii ki, sınaqları "əla" və "yaxşı" qiymətlərlə başa vuran hərbi qulluqçular "kiçik çavuş" hərbi rütbəsi verilməklə aidiyyəti üzrə vəzifələrə təyin olunurlar.

Hərbi qulluqçuların mənəvi-psixoloji durumunun yüksəldilməsində, onların peşəkar komandir kimi hazırlanmasında bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Fərid İbadlının da xüsusi rolu var.

Qeyd edək ki, cari ilin 1-ci yarımilinin xidməti-döyüş fəaliyyətinin nəticələrinə və əldə olunan nailiyyətlərə görə kiçik komandirlər hazırlayan tədris bölüyü hərbi hissə üzrə ilk üçlükdə qərarlaşıb. Bu isə aparılan uğurlu xidmətin nəticəsidir.

### Bölüyün təyinatı peşəkar mütəxəssislərin hazırlanmasıdır

25032 saylı hərbi hissədə xidməti fəaliyyətini uğurla həyata keçirən bölüklərdən biri də sürücü və kiçik mütəxəssislər hazırlayan tədris bölüyüdür. Bölüyün qarşısında duran əsas tapşırıq qoşunların hərbi hissələrini rabitəçi, aşpaz və sürücülərlə təmin etməkdir.

Sürücü və kiçik mütəxəssislər hazırlayan tədris bölüyünün komandiri-baş müəllim leytenant Nihad Sərdarlı təyinatına uyğun olaraq hər bir taqımın mütəmadi olaraq məşğələlərə cəlb olunduğunu nəzərimizə çatdırdı. Qeyd etdi ki, tədris zamanı rabitəçi mütəxəssisləri hazırlayan taqımın şəxsi heyətinə qoşunların təchizatında olan rabitə və yüksək texnoloji vasitələrin, ultraqısa dalğalı, eyni zamanda, qısadalğalı radiostansiyaların taktiki-texniki xüsusiyyətləri izah edilir, işə salınması, istismarı, eləcə də radiomübadilənin aparılması qaydaları öyrədilir.

Rabitəçi mütəxəssislərin hazırlanması Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq əmrinin tələblərinə əsasən təşkil edilir. Şəxsi heyətin ixtisas hazırlığı üzrə əsas təlim forması aparatlarda, fəaliyyətdə olan rabitə kanallarında praktiki məşğələlərdir. Nəzəri bilik ştat texnikasının iş prinsipinin dərk olunması həcmində verilir. Məşğələlər keçirilən zaman stansiyalardan, sabit rabitə qovşaqlarından, orada olan texnikadan və başqa maddi-texniki bazalarından istifadə olunur. Rabitə vasitələrində işləmək üçün təlim ilk dəfə sinifdə və fəaliyyətdə olan aparatlarda, sonra isə səhra rabitə qovşaqlarında keçirilir. Hər bir məşğələnin sonunda öyrədilən materialın mənimsənilməsi araşdırılır və qiymətləndirilir.



Aşpazlara ərzaq payı normaları, yeməklərin bişirilməsi, səhra şəraitində hazırlanması, texnoloji avadanlıqlardan düzgün istifadə edilməsi, o cümlədən, gigiyena qaydalarına ciddi riayət olunması üsulları öyrədilir.

Aşpaz hazırlayan tədris taqımının komandiri-müəllim leytenant Muradxan Namazov bildirdi ki, tədris proqramı bitdikdən sonra hərbi qulluqçular təcrübə keçmək üçün Daxili Qoşunların 25031, 67987 və 99713 saylı hərbi hissələrinə ezam olunur, təyin olunmuş müddət bitdikdən sonra isə hərbi hissəyə qayıdırlar. Tədris dövrünü, eləcə də imtahanları müsbət qiymətlə başa vuran hərbi qulluqçular aidiyyəti üzrə vəzifələrə təyin olunurlar.



Bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Rizvan Xəlilovun hərbi qulluqçuların təlim-tərbiyəsində, dünyagörüşünün artırılmasında fəaliyyəti danılmazdır. O, şəxsi heyətlə mütəmadi olaraq tərbiyə mövzusunda söhbətlər aparır, mənəvi-psixoloji durumun yüksəldilməsi istiqamətində səylə çalışır.

**baş leytenant Nigar Ağayeva**

3_Layout 1 29.08.2022 15:32 Page 1



**Vətən gedən gündən nisgillə gəzdik,**
**Belə yaşamaqdan usandıq, bezdik,**
**"Dəmir yumruq" ilə düşməni əzdik,**
**Qisasımız qiyamətə qalmadı.**

Bu misralar tanınmış şair-publisist Fuad İslamoğlunun Vətənimizin müdafiəsi uğrunda şəhadətə yüksəlmiş igid oğullarımızın əziz və unudulmaz xatirəsinə ithaf etdiyi "Qisasımız qiyamətə qalmadı" adlı şeirlər toplusu kitabından bir parçadır.

Respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda son damla qanınadək vuruşaraq şəhidlik zirvəsinə yüksəlmiş igid oğullarımızı tanımaq və gənc nəslə tanıtmaq hər birimizin vətənpərvərlik borcudur.

Beləliklə, "Şəhidlərimiz" rubrikasının budəfəki qəhrəmanı Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının cəsur xüsusi təyinatlısı çavuş Şahbazov Abas Cavad oğludur.

Çavuş Abas Şahbazov 1996-cı il noyabrın 13-də İmişli rayonunun Qulubəyli kəndində anadan olub. Cavad Şahbazovun və Firuzə Abdullayevanın böyüdüb tərbiyə etdiyi iki övladdan (Abas və Mirzağa) biri, ailənin ilk nübarı idi.

Abas orta təhsilini Azərbaycanın Milli Qəhrəmanı, şəhid İmamverdi Əliyevin adını daşıyan Qulubəyli kənd tam orta məktəbində alıb. Məktəbin intizamlı və istedadlı şagirdlərindən biri olan Abas riyaziyyat və fizika fənlərinə xüsusi maraq göstərib. Ailəsinin verdiyi məlumata görə, hələ ibtidai sinifdə oxuduğu dövrdə yuxarı siniflərin riyaziyyat məsələlərini də sərbəst şəkildə həll etdiyindən gələcəkdə riyaziyyat müəllimi olmaq onun arzusu olub. Lakin test imtahanından müvafiq balı toplaya bilmədiyindən ali məktəbə qəbul ola bilməyib. Kollecə daxil olsa da, burada təhsil almaqdan imtina edib. Abas valideynlərinə müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra hazırlaşıb yenidən imtahan verəcəyinə və riyaziyyat müəllimi ixtisası üzrə ali təhsil alacağına söz versə də, əsgəri xidməti dövründə hərbçi peşəsinə yaranan marağı səbəbindən bu fikrindən vaz keçib.

2015-ci ilin yanvar ayında Abas Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İmişli Rayon Şöbəsindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2016-cı ilin iyul ayınadək Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 25031 və 16075 saylı hərbi hissələrində hərbi xidmət keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qoşunların sıralarında qalaraq, hərbi xidmətini davam etdirməyə qərar verib. Beləliklə, 2016-cı ilin iyul ayında 16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində

*Şəhidlərimiz*

# "ANCAQ İRƏLİYƏ GETMƏLİYİK!"



müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 2019-cu ilin dekabr ayından isə 99713 saylı hərbi hissənin "Şahin" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsinin snayper qrupunda atıcı-müşahidəçi vəzifəsində xidmət edib. Xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi keyfiyyətləri ilə fərqlənən hərbi qulluqçumuz hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlara qatılan çavuş A.Şahbazov silahdaşları ilə birgə Cəbrayıl rayonunun bir sıra yaşayış məntəqələrinin və strateji əhəmiyyətli yüksəkliklərin azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin snayper qrupunda qrup komandirinin müavini-snayper, Vətən müharibəsi iştirakçısı gizir Şamil Əhmədov vaxtilə birgə xidmət etdiyi Abasın nümunəvi hərbi xidmətindən və döyüş meydanında göstərdiyi qəhrəmanlığından iftixar hissi ilə danışdı: "Çavuş Abas Şahbazovu hələ 16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin tərkibində birgə xidmət etdiyimiz dövrdən tanıyırdım. İntizamlı, məsuliyyətli, əsl vətənpərvər hərbi qulluqçu olmaqla yanaşı, deyib-gülən, dostluqda və yoldaşlıqda son dərəcə dürüst bir insan idi. Sonralar Abasla birgə qoşunların 99713 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsinin snayper qrupunda xidmətimizi davam etdirdik.

Tale elə gətirdi ki, Vətən müharibəsi zamanı Abasla eyni qrupun tərkibində döyüş əməliyyatlarına qatıldıq. Gözündə qorxu hissi yox idi. Döyüş meydanında cəsurluq nümunəsi göstərən Abas bütün silahdaşlarının fəxri, qüruru idi.

İlk döyüşümüz sentyabrın 29-da kapitan İsmayıl Səmədovun rəhbərliyi altında (2020-ci ilin oktyabrın 11-də Füzuli istiqamətində gedən döyüşdə şəhid olub, ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb) Cəbrayıl rayonunda yerləşən Lələtəpə yüksəkliyi istiqamətindən başladı. Müdafiə Nazirliyinin xüsusi təyinatlıları ilə birgə ermənilərin uzun illər möhkəmləndirdikləri və keçilməz hesab etdikləri cəbhə xəttinin yarılmasında iştirak etdik və uğur qazandıq. Bizimlə qarşı-qarşıya vuruşmaqdan qorxan düşmən əsgərləri silahlarını da atıb, olduqları mövqeləri qoyub qaçırdı. Cəbrayıl şəhəri istiqamətində bir sıra yaşayış məntəqələri və mühüm əhəmiyyət kəsb edən yüksəkliklər düşməndən geri alındı. Növbəti döyüş tapşırığımız Cəbrayıl şəhərinin azad edilməsi idi.

Oktyabrın 4-də Cəbrayıl istiqamətində döyüşlərə qatıldıq. Qarşımıza şəhər ətrafındakı "Qüllələr" deyilən və ermənilərin nəzarətində olan təpəni azad etmək tapşırığı qoyulmuşdu. İki qrupa ayrılmışdıq. Bütün hazırlıqlar görüldükdən sonra hücuma keçmək üçün havanın qaralmasını gözlədik. Oktyabrın 4-dən 5-nə keçən gecə güclü yağış yağmağına baxmayaraq, düşmən üzərinə hücuma keçdik. İrəlilədiyimiz vaxt ermənilərin postuna təxminən 20-25 metr qalmış mənfur düşmən pulemyotlardan və müxtəlif növ silahlardan üzərimizə dayanmadan atəş açmağa başladı. Biz dərhal mövqe tutub döyüşü davam etdirməyə başladıq. Həmin vaxt şəhid və yaralılarımız oldu. Lakin biz hücumu davam etdirərək, düşmənin xeyli sayda canlı qüvvəsini məhv edib, mövqelərini ələ keçirdik. Bu döyüşdə düşmən gülləsinə tuş gələrək ağır yaralanmış cəsur silahdaşlarımızdan biri də Abas idi. Ona ilkin tibbi yardım göstərilsə də, yarası ağır olduğundan təəssüflər olsun ki, həyatını xilas etmək mümkün olmadı.

Yoldaşları ilə hər zaman mehriban olan Abas yaralandığı ağır vaxtlarında da zarafatından və deyib-gülməyindən qətiyyən qalmırdı. Son nəfəsində isə Abas: "Bu qədər şəhid vermişik, qan tökmüşük. Geri çəkilmək olmaz. Ancaq irəliyə getməliyik!" – deyərək, gözlərini əbədi yumdu".

Vətən müharibəsi iştirakçıları: 99713 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi əməliyyat qrupunda atıcı-qumbaraatan çavuş İskəndər İsayev, snayper qrupunda atıcı-müşahidəçi çavuş Nüsrət Hüseynov və 16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunda atıcı çavuş Adəm Əmənov da vaxtilə bir qrupun tərkibində xidmət etdikləri çavuş A.Şahbazovun keçdiyi qısa, lakin şərəfli döyüş yolunun gənc nəslə nümunə olduğunu bildirdilər.



Çavuş Abas Şahbazov 2020-ci il oktyabrın 6-da doğulub boya-başa çatdığı Qulubəyli kənd qəbiristanlığında dəfn olunub. Subay idi. Ölümündən bir ay öncə nişanlanmışdı. Abas müharibədən sonra toy edib ailə həyatı qurmağı və xoşbəxt ömür sürməyi düşünürdü.

Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilmiş 17 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə hərbi qulluqçumuzun 2020-ci il oktyabrın 6-da Füzulidə hərbi əməliyyat nəticəsində odlu silah yarasından həlak olduğu yazılıb.

Azərbaycan Respublikası Prezidentinin 15 və 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Şahbazov Abas Cavad oğlu (ölümündən sonra) "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhid silahdaşımızın Qulubəyli kəndindəki evində şəkilləri və şəxsi əşyalarından ibarət xatirə guşəsi yaradılıb.

Məlumat üçün bildirək ki, "Cümhuriyyət TV" saytının "YouTube" internet portalı vasitəsilə yayımlanan "Şəhid Abas Şahbazov" adlı süjetdə cəsur silahdaşımızın gənc nəslə nümunə olan həyat və döyüş yolu barədə məlumatlar izləyicilərə təqdim edilib. Bundan əlavə, 2021-ci ildə nəşr olunan "44 günlük Zəfər yolu" adlı kitabda dərc edilən "Xüsusi təyinatlı Abas", həmçinin, 2022-ci ildə işıq üzü görən "Vətən adını zirvələrə ucaldanlar" adlı kitabda yer alan "Sizə İrəvandan zəng edəcəm" başlıqlı məqalələrdə Abasın həyat və döyüş yolu işıqlandırılıb.

Şəhidin qardaşı Mirzağa Şahbazov da Vətən müharibəsi iştirakçısıdır. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi döyüş əməliyyatlarına qatılan Mirzağa "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

Onu da qeyd edim ki, Azərbaycan Respublikasının Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun diqqət və qayğısı nəticəsində şəhid hərbi qulluqçumuzun qardaşı daxili işlər orqanlarında xidmətə qəbul edilib. Polis kiçik serjantı M.Şahbazov hazırda İmişli Rayon Polis Şöbəsində postpatrul xidməti bölüyünün polis nəfəri vəzifəsindədir.

Ümumiyyətlə, Qulubəyli kəndi hər zaman vətənpərvər, torpağa bağlı, zəhmətkeş sakinləri ilə seçilib. Kəndin respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş 8 nəfər sakinindən 5 nəfəri Birinci Qarabağ müharibəsi zamanı (onlardan 2 nəfəri mülki sakin), 3 nəfəri isə 44 günlük Vətən müharibəsində əbədiyyətə qovuşub. Həmçinin, qürur hissi ilə qeyd etməliyik ki, kəndin 20 nəfər sakini xalqımızın qələbəsi ilə başa çatan Vətən müharibəsi zamanı könüllü olaraq döyüş əməliyyatlarında fəal iştirak edib.

"Vətənimizin müdafiəsi uğrunda vuruşan qeyrətli oğullarımızla hər zaman qürur duymuşam və bundan sonra da qürur duyacağam. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin, igid oğullarımız hər zaman var olsun!" – deyən şəhid atası Cavad Şahbazovun da vurğuladığı kimi Vətən uğrunda həyatını qurban verən cəsur oğullarımızın əziz xatirəsi hər birimizin qəlbində əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

---

*Qazilərimiz*

# MÜHARİBƏDƏN ÇOXSAYLI QƏLPƏ YARASI İLƏ QAYIDAN VƏTƏNPƏRVƏR SİLAHDAŞIMIZ

Həmvətənimiz olan müxtəlif millətlərin nümayəndələri hər iki Qarabağ müharibəsi zamanı döyüş meydanında erməni işğalçılarına qarşı ləyaqətlə vuruşaraq şəhadətə ucalıb, həmçinin, qazi olublar.

Vətən müharibəsi qazisi, Daxili Qoşunların sabiq hərbi qulluqçusu, ehtiyatda olan əsgər İsmayılov Şəhriyar Abil oğlu etnik mənsubiyyətinə görə ləzgidir. O, 1996-cı il yanvarın 24-də Oğuz rayonunun Qarabulaq kəndində doğulub. Abil İsmayılov və Nəzakət İsmayılovanın yeganə övladıdır. Zəhmətkeş ailədə böyüyərək boya-başa çatıb, valideynləri tərəfindən el-obaya hörmət, doğma torpağa bağlılıq ruhunda tərbiyə olunub.

Şəhriyar Qarabulaq kəndində yerləşən Əjdər Mahmudov adına tam orta məktəbin məzunudur. Orta məktəbdə oxuduğu illərdə Şəhriyar çağırışaqədərki hazırlıq və idmandan yüksək qiymətləri, bacarıqları ilə fərqlənib, lakin digər fənlər üzrə də çalışqanlığını əsirgəməyib. İdmanla məşğul olub. Özünün dediyinə görə, hələ məktəbli olarkən polis peşəsinə maraq göstərib.

2014-cü ilin yanvar ayında Şəhriyar müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2015-ci ilin iyul ayınadək Müdafiə Nazirliyinin Naxçıvan Muxtar Respublikasının Culfa rayonu və Naxçıvan şəhərindəki "N" saylı hərbi hissələrində hərbi xidmət keçib. İstehkamçı-kəşfiyyatçı vəzifəsində qarşısına qoyulan tapşırıqları vicdanla yerinə yetirib.

Hərbi xidmətdən qayıtdıqdan sonra gənc Bakı Dəmiryol Kollecində elektrik qatarı maşinistinin köməkçisi ixtisasına yiyələnib. Bununla yanaşı, bir müddət ev inşası və təmiri sahəsində usta köməkçisi işləyib. Ancaq Şəhriyar həyatını hərbi xidmətə bağlamaq qərarını verib. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xidməti onun diqqətini cəlb etdiyindən öz seçimini qətiləşdirib.

2018-ci ilin avqust ayında Şəhriyar qoşunların 99713 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsinin xüsusi vasitələrin tətbiqi qrupunda atıcı vəzifəsində xidmət edib. Hərbi xidməti dövründə komandanlığın etimadını doğruldub, silahdaşları arasında hörmət qazanıb. Ona təhkim olunan silah və xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətlərini, istifadə qaydalarını mükəmməl öyrənib, praktiki təlimlərdə öz döyüş hazırlığını təkmilləşdirib. Paytaxtımızda ictimai qaydanın və təhlükəsizliyin qorunması, habelə koronavirus infeksiyası ilə bağlı karantin rejiminin təmin olunması üçün, eləcə də beynəlxalq idman tədbirlərində xidmətə cəlb edilib. Qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsinə öz töhfəsini verib.

2020-ci il sentyabrın 27-də erməni işğalçılarına qarşı Vətən müharibəsi başladıqda Şəhriyarın xidmət etdiyi bölmənin şəxsi heyəti 16077 saylı hərbi hissəyə göndərilib. Burada həmin ilin oktyabr ayının 15-dək ehtiyat qüvvə olaraq qalıblar. Göstərilən müddətdə Ağdam rayonunun ərazisində patrul xidməti üzrə tapşırıqları yerinə yetiriblər.

2020-ci il oktyabrın 15-də Füzuli rayonuna göndərilərək, ön cəbhənin bu istiqamətində Müdafiə Nazirliyinin bölmələri ilə birlikdə işğaldan azad olunmuş ərazidəki hüdudlarda cəmləşiblər. Beləliklə, Şəhriyarın döyüş yolu Füzuli rayonundan başlayıb. Qazi danışdı ki, oktyabrın 17-də Füzuli şəhərində düşmənin pusqusuna düşsələr də, qətiyyətlə vuruşaraq işğalçıların atəş nöqtələrini susdurublar. Növbəti gün "Beton post" adlanan möhkəmləndirilmiş mövqeyə hücuma keçiblər. İşğalçılar bu mövqedə iriçaplı silahlar yerləşdiriblər. Bundan əlavə, burada dəmir relslər üzərində hərəkət edən minaatan quraşdırıblar, hər dəfə atəş açdıqdan sonra hədəfə alınmamaq üçün orada düzəldilmiş sığınacaqda gizlədilib. Hücuma keçən qruplar əlverişli müdafiə imkanlarından yararlanan təcavüzkara şiddətli atəş zərbəsi endiriblər.

Şəhriyar bildirdi ki, bir neçə gündən sonra Xocavənd rayonunun Hadrut qəsəbəsinin yaxınlığında yerləşiblər. Buradan



qruplarla Hadruta, Füzuli və Cəbrayıl rayonlarının ərazilərinə aparılaraq, bir sıra hərbi obyektlərin mühafizəsi, ətrafdakı ön mövqelərin müdafiəsində dayanıblar, habelə axtarış-müşahidə tədbirlərinə cəlb olunublar. Axtarışlar zamanı düşməndən qalmış xeyli sayda silah-sursat tapılaraq qənimət götürülüb. Döyüşçünün özü ermənilərə məxsus silahlar, pulemyot güllələri və avtomat daraqları aşkarlayıb.

Ehtiyatda olan hərbi qulluqçu söylədi ki, noyabrın 6-da onun tərkibində olduğu bölməyə Xocavənd və Xocalı rayonlarının dağlıq-meşəlik ərazilərindən keçməklə, Şuşaya doğru hərəkət etmək, şəhər uğrunda döyüşlərə qatılmaq tapşırığı verilib. Topxana meşəsində hərbi avtomobillərlə daşınıblar, oradan isə Daşaltı kəndinə qədər piyada irəliləyiblər. O vaxt Şuşa ətrafında şiddətli döyüşlər gedirdi, düşmənin müqaviməti tükənirdi. Noyabrın 8-də Şuşada təcavüzkarı darmadağın edən ordumuz şəhər üzərində müqəddəs üçrəngli bayrağımızı qaldırıb.

Noyabrın 9-da Daşaltıdan Şuşaya hərbi avtomobillərlə hərəkət edərkən döyüşçülərimiz ətraf yüksəkliklərdən düşmənin artilleriya atəşinə məruz qalıblar, nəticədə texnika sıradan çıxıb, şəhərə piyada qalxıblar. Onlara şəhərdə axtarış apararaq işğalçıların diversiya-kəşfiyyat qruplarının olub-olmadığını yoxlamaq, şəhərətrafı mövqeləri möhkəmləndirmək tapşırılıb. Şuşanın yaxınlığında, Şəhriyar və bir neçə nəfər döyüşçüdən məsafəcə 5-6 metr aralıda düşmənin atdığı minaatan mərmiləri partlayıb. Partlayış anında Cahangir adlı hərbi qulluqçumuz şəhid olub, Şəhriyar və silahdaşı Kamran mərmi qəlpələrindən yaralanıblar. Yaralılara yerindəcə və Şuşada zəruri tibbi yardım göstərilib, döyüş zonasından arxaya təxliyyə ediliblər.

Sol ayağından ağır yaralanan Şəhriyar Füzuli Rayon Mərkəzi Xəstəxanasında cərrahi əməliyyat olunub. Xəstəxanada olarkən qanqren təhlükəsi yarandığından sol ayağı kəsilə bilərdi, ancaq paytaxtdan buraya ezam olunmuş Bayram adlı həkimin peşəkarlığı sayəsində bu təhlükə aradan qaldırılıb. O, Göyçay Rayon Mərkəzi Xəstəxanası, Müdafiə Nazirliyi və Daxili Qoşunların hərbi qospitalları, Daxili İşlər Nazirliyinin 1 saylı Poliklinikasında müalicə kursları keçib. Tibbi sənədlərində "partlayış travması, sol said, sol bud, sol diz oynağı nahiyələrinin odlu silahdan çoxsaylı qəlpə yaralanması, diz qapağının çoxqəlpəli, açıq sınığı, sol ayağın 5-ci barmağının travmatik amputasiyası, sol sağrı, sol bud, sol diz oynağının çıxarılmamış yad cisimləri (metal qəlpələr), ağrı sindromu, sol aşağı ətraf funksiyalarının mülayim dərəcədə pozulması" diaqnozu və yaralanmanın digər fəsadları da yazılıb. III qrup əlil olaraq 2021-ci ilin may ayında Daxili Qoşunların sıralarından ehtiyata buraxılıb.

99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri, Vətən müharibəsi iştirakçısı polkovnik-leytenant Yavər Məmmədov qazi haqqında fikirlərini mənimlə bölüşdü. O bildirdi ki, Şəhriyarı 2018-ci ilin noyabr ayından tanıyır. İntizamlı, xidmətdə əzmkar, özünə qarşı tələbkar, verilmiş əmr və tapşırıqları vaxtında, dəqiq icra edən hərbi qulluqçu olub. Döyüşçü kimi də qətiyyətlə irəliyə can atıb. Füzulidən Şuşayadək avtomat silahı ilə müxtəlif döyüş tapşırıqlarını cəsarətlə yerinə yetirib. Çoxsaylı qəlpə yarası ilə ön cəbhədən təxliyyə edilib.

99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində yarımqrup komandiri gizir Əşrəf Əşrəfli də Vətən müharibəsi iştirakçısıdır. Məlumat verdi ki, Şəhriyar onun tabeliyində xidmət edib. Onun xidmət zamanı hərtərəfli hazırlığa malik olduğunu, məsuliyyəti, bacarığı, yoldaşlıqda etibarlılığı ilə fərqləndiyini dedi. Hərbi hissə komandiri tərəfindən nümunəvi xidmətinə görə mükafatlandırılıb. Əşrəfin sözlərinə görə, müharibədə Şəhriyar vətənpərvər döyüşçü kimi vuruşub. Vaxtilə Müdafiə Nazirliyinin hərbi hissəsində istehkamçı-kəşfiyyatçı kimi xidmət etməsi də döyüş şəraitində ayrıayrı vəziyyətlərdə onun köməyinə yetib. Füzuli rayonu istiqamətindəki döyüşlərdə düşmənin bir neçə qrupunun məhv edilməsində Şəhriyar silahdaşları ilə birgə mətinlik göstərib. Şuşanın girəcəyində minaatan mərmisinin qəlpələrindən ağır yaralanarkən partlayışın təsiri ilə üzərində olan avtomat güllələrindən də xəsarət alıb.

Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2020-ci il tarixli müvafiq sərəncamı ilə əsgər Ş.İsmayılov "Füzulinin azad olunmasına görə" medalı, eləcə də Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamına əsasən, "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunub.

Qazi 2017-ci ilin sentyabr ayında ailə qurub. Vətən müharibəsindən bir il sonra oğlu dünyaya gəlib. Ailəsi ilə birgə Mehdiabad qəsəbəsində kirayədə yaşayır. Bu gün də səhhəti ilə bağlı müalicəsini davam etdirir. Xidmətdə olan, ehtiyata buraxılan silahdaşlarına ona göstərdikləri diqqətə görə minnətdarlığını bildirdi. Cari ilin iyun ayının 8-də 99713 saylı hərbi hissədə qazilərlə keçirilən görüşdə Şəhriyara hərbi hissə komandirinin imzaladığı təşəkkürnamə təqdim edilib.

Doğma kəndində yeganə qazi olan Şəhriyar kimi oğullar bizim fəxrimizdir.

**Yalçın Abbasov**

4_Layout 1 29.08.2022 15:39 Page 1



# ŞƏXSİ HEYƏTİN SAĞLAMLIĞI ETİBARLI ƏLLƏRDƏDİR

Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunması həmişə diqqət mərkəzindədir. Çünki sağlamlıq amili döyüş hazırlığına bilavasitə təsir göstərir. 16076 saylı hərbi hissənin tibb xidməti vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra edir.



Tibb xidmətinin tibb məntəqəsinin rəisi tibb xidməti baş leytenantı Şənlik Möhübbətzadə şəxsi heyətin tibbi təminatını həyata keçirir, hərbi hissədə müalicə-profilaktika, gigiyena qaydalarına riayət olunmasına, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır.



Tibb xidməti baş leytenantı Ş.Möhübbətzadə bildirdi ki, gündəlik olaraq xidmət öz işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat"ın tələblərinə və hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Xidmət daxilində keçirilən iclasda gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir.

Məntəqə rəisi şəxsi heyətin sağlamlığının qorunması barədə məlumat verərkən nəzərə çatdırdı ki, havaların isti keçməsi ilə əlaqədar olaraq hərbi qulluqçuların gün şüalarının birbaşa təsirindən qorunması üçün profilaktik tədbirlər görülür. Suyun fiziki, kimyəvi və bakterioloji müayinələri aparılır, hərbi qulluqçuların qaynadılmış su ilə təminatı diqqətdə saxlanılır.

Bundan əlavə, qarovul xidmətinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır, sağlamlığında problem aşkarlanan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə qəbul olunur. Bölmələr tibbi preparatlarla fasiləsiz olaraq təmin edilir.

Tibb məntəqəsində həkim-terapevt tibb xidməti leytenantı Firudin Əmirov ambulator xəstələrin qəbulunu, onlara yardım göstərilməsini, təyinatların icrasına nəzarəti, həmçinin, xəstələrin tibb kitabçalarında qeydiyyatların aparılmasını həyata keçirir.

Tibb məntəqəsində sanitar-təlimatçı dezinfektor gizir Elşad Kərimov əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargah binasında, yataqxanada dezinfeksiya işləri aparır. Aptek rəisi kiçik gizir Saleh Hacıyev bölükləri tibbi preparatlarla fasiləsiz təmin edir, dərmanların düzgün istifadəsinə, tibbi avadanlıqların saz vəziyyətdə saxlanılmasına, sterilizasiyasına diqqət yetirir.

Görülən bu işlərin əsas məqsədi əsgərlərimizin sağlam və güclü olmasıdır.

**kapitan Xədicə Hacızadə**

# AVTOMOBİLLƏRİN VƏ ZİREHLİ TEXNİKANIN SAZ VƏZİYYƏTDƏ OLMASINA XÜSUSİ FİKİR VERİLİR

Döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılmasında bütün xidmət sahələrinin öz rolu var. Avtomobil və zirehli texnika xidməti də bu baxımdan istisna deyil. Şəxsi heyətin, habelə xüsusi yüklərin təyin olunmuş ünvana vaxtlı-vaxtında çatdırılmasında xidmətin hərbi qulluqçularının əməyi böyükdür.

Daxili Qoşunların 17074 saylı hərbi hissəsinin avtomobil və zirehli texnika xidməti üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirir. Avtomobil və zirehli texnika xidmətinin rəisi mayor Elman Əhmədov nəqliyyat vasitələrinin saz vəziyyətdə saxlanılması üçün görülən işlərdən danışarkən bildirdi ki, hər gün bölmələrin sürücü heyəti avtomobil parkına gəlir. Parkın girişində şəxsi heyətin sayı yoxlanılır, təhlükəsizlik qaydaları ilə tanışlıqdan sonra verilmiş tapşırıqlara əsasən fəaliyyət başlayır.





Avtomobil xəttə çıxmazdan öncə parkda yerləşən nəzarət-texniki məntəqədə maşın rəhbərinin, sürücünün sənədlərinin mövcudluğu, eləcə də nəqliyyat vasitələrinin texniki vəziyyəti yoxlanılır, park növbətçisi tərəfindən xəttə çıxması üçün icazə verilir. Bundan sonra xidmət rəisi tərəfindən sürücülər təlimatlandırılır, hava və yol şəraiti barədə məlumat, yol hərəkəti qaydalarına riayət edilməsi, nəqliyyat vasitəsinin müəyyən edilən həddən artıq olmayan sürətlə idarə olunması, habelə avtomobil hərəkətdə olarkən təhlükəsizlik kəmərlərindən istifadə edilməsi haqqında müvafiq tapşırıqlar verilir. Xətdən qayıtdıqdan sonra parkın girişində təyin olunmuş yerdə avtomobil saxlanılır, maşın böyüyü avtomobili nəzarət-texniki məntəqəsi rəisinə təqdim edir. O, avtomobilin sazlığını yoxlayır, sürücü tərəfindən nəqliyyat vasitəsinə texniki qulluq göstərilir, yuyulur və yanacaq doldurulduqdan sonra parkda təyin olunmuş saxlancda saxlanılır.

Görülən gündəlik işlərdən başqa, nəqliyyat vasitələrinə yay və qış mövsümlərində texniki xidmətlər göstərilir. Bu zaman avtomobillərdə təmir işləri aparılır, xarici görünüşləri qaydaya salınır.

Xidmət rəisi nəqliyyat vasitələri təhkim olunmuş hərbi qulluqçuların nəzəri biliklərinin artırılması məqsədilə mütəmadi olaraq məşğələlərin keçirildiyini söylədi.

Mayor E.Əhmədov layiqli xidməti, bilik və bacarığı ilə digər yoldaşlarına nümunə olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından baş çavuş Elvin Cavadov və baş çavuş Elnur Məmmədovun adlarını qeyd etdi.

**kapitan Şahin Cəfərzadə**

# CAMAŞIRXANANIN FƏALİYYƏTİ QƏNAƏTBƏXŞDİR



Daxili Qoşunların hərbi hissələrində yaradılmış səliqə-sahmanın, göz oxşayan yaşıllıqların qorunub saxlanılması, şəxsi heyət arasında sanitar-gigiyenik vəziyyət və bu qaydalara ciddi riayət olunması hissə komandanlıqları qarşısında qoyulan əsas tələblərdən biridir. Sadaladığımız bu xüsusiyyətlər qoşunların 25033 saylı hərbi hissəsində də özünü büruzə verir. Abadlıq-quruculuq işlərinin daha da təkmilləşdirilməsi istiqamətində aidiyyəti məsul cavabdeh şəxslər vəzifə borclarına məsuliyyətlə yanaşırlar.



Qarşıya qoyulmuş bu və digər tələblərin yerinə yetirilməsində, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında təkcə hərbi qulluqçuların deyil, mülki işçilərin də əməyindən geniş istifadə olunur. Əsgər yeməkxanasında xörəklərin hazırlanması, camaşırxanada şəxsi heyətin həftə ərzində istifadə etdiyi əmlakların yuyulması və digər işlər onlar tərəfindən həyata keçirilir. Əvvəllər bu işlərə müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları cəlb edilirdilərsə, artıq əsgər bütün bilik və bacarığını, gücünü təlim və məşğələlərdə döyüş hazırlığının yüksəldilməsinə sərf edir.



Bu baxımdan hərbi hissənin camaşırxanasında çalışan işçilərin fəaliyyəti təqdirəlayiqdir. Qeyd etmək lazımdır ki, camaşırxana bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən, çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.

Funksional vəzifələrinin icrası zamanı düzgün qərar verməyi bacaran təminat bölüyünün təminat taqımında hamam-camaşırxana kombinatının rəisi baş əsgər Raqif Qəfərov 2022-ci ilin aprel ayından hərbi hissədə xidmət edir. Yeni təyin olunmasına baxmayaraq, vəzifələrinin öhdəsindən layiqincə gəlir. Baş əsgər R.Qəfərov tabeliyində olan işçi xanımların işgüzar və mənəvi keyfiyyətlərini sadaladı. Bildirdi ki, camaşır-işçilər Aygün Mehdiyeva, Mahnur Ağayeva, Nəzmiyyə Canıyeva və Səbuhi Rəhmanova artıq uzun zamandır ki, hərbi hissədə əsgərlərin qayğısına qalırlar.

Mülki işçi olmalarına baxmayaraq, hərbi qulluqçulara xas nizam-intizama, bacarığa malik olan camaşır-işçilər bundan sonra da üzərlərinə düşən vəzifələri, habelə verilmiş tapşırıqları müvafiq tələblər əsasında yerinə yetirmək üçün səylə çalışacaqlarını bildirdilər.

**kapitan Xədicə Hacızadə**

*NÜMUNƏVİ XİDMƏT*

# XİDMƏTDƏ SAYIQLIQ NÜMUNƏLƏRİ TƏQDİRƏLAYİQDİR

Daxili Qoşunların sıralarında nizam-intizamı, sayıqlığı və mərdliyi ilə fərqlənən hərbi qulluqçular çoxdur. Onların xidməti fəaliyyəti haqqında müxtəlif məqalələrin dərc olunması isə mətbuat xidməti olaraq bizim üzərimizə düşür. Bu sayımızda xidməti vəzifələrinin icrasına məsuliyyətlə yanaşan, özünə qarşı tələbkar olan hərbi qulluqçularımızdan baş çavuş Tərlan Əlimuradov və əsgər Hafiz Hüseynov barədə məlumat vermək istərdik.



Baş çavuş T.Əlimuradov 1993-cü il mayın 20-də İsmayıllı rayonunun Qalacıq kəndində anadan olub. Böyüyüb boya-başa çatdığı doğma kəndində yerləşən Tariyel Xanadanov adına tam orta məktəbin məzunudur. 2011-ci ildə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 12565 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. Məktəb illərində hərbçi peşəsinə böyük maraq göstərən Tərlan 2013-cü ildə Daxili Qoşunların 67987 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Hərbi xidmətinin ilk günlərindən məsuliyyəti, fəallığı ilə fərqlənib.

Hazırda 67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrupunda atıcıdır. Xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı və nümunəvi hərbi intizam nümayiş etdirdiyinə görə Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı, eləcə də hərbi hissə komandiri tərəfindən mükafatlandırılıb.

Xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri mayor Rüfət Muradov tabeliyində olan baş çavuş T.Əlimuradovu müsbət xarakterizə edərkən bildirdi ki, o, verilən tapşırıqların icrası zamanı əzmkarlıq göstərir, komandirlərinin əmr və göstərişlərini sözsüz yerinə yetirir.

Artıq 11 ildir ki, hərbi xidmətdə olan hərbi qulluqçumuzun nümunəvi xidmətinin əyani təsdiqi bu günlərdə özünü büruzə verdi. Belə ki, avqust ayının 8-də baş çavuş T.Əlimuradov Nardaran qəsəbəsində xidmət aparan zaman Bakı şəhər sakini Mirzəbəyli Vüqar Elçin oğluna məxsus 99-VU-308 dövlət qeydiyyat nömrə nişanlı "Chevrolet" markalı avtomobildə baxış keçirən zaman binokl olan pnevmatik tir tüfəngini aşkar edərək müvafiq qaydada polis bölməsinə təhvil verib.

Qısa vaxt ərzində xidməti, intizamı, təlim-tərbiyəsi ilə hərbi kollektivdə hörmət qazanan digər nümunəvi hərbi qulluqçumuz əsgər Hafiz Hüseynov 2004-cü il iyulun 27-də Gəncə şəhərində anadan olub. Uşaqlıq və yeniyetməlik illərində idmanın güləş növü ilə məşğul olub. 2021-ci ildə Gəncə şəhər Əhməd Cavad adına 2 saylı tam orta məktəbi bitirib. Elə həmin




ildə Gəncə Dövlət Universitetinin nəzdindəki Regional Kollecə qəbul olunub. 2022-ci ilin yanvar ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhərinin Kəpəz Rayon Şöbəsindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hazırda 16076 saylı hərbi hissənin mühafizə bölüyündə atıcı vəzifəsində xidmət edir.

Bölük komandirinin vəzifəsini müvəqqəti icra edən baş leytenant Firqət Əzizlinin verdiyi məlumatlara əsasən, əsgər H.Hüseynov xidməti-vəzifə borclarının yerinə yetirilməsinə məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları ləyaqətlə icra edir. Hərbi nizamnamələrin tələblərini bilir, gündəlik xidmətini bu tələblərə əsasən təşkil edir. Hərbi qulluqçumuz nəzəri və praktiki biliklərinin, fiziki hazırlığının artırılması üçün çalışır. Hərbi nəzakət və davranış qaydalarını bilir.

Baş leytenant F.Əzizli onu da vurğuladı ki, əsgər H.Hüseynov hər zaman xidmətində ayıq-sayıqdır. Belə ki, avqustun 9-da Daxili İşlər Nazirliyinin inzibati binasının mühafizəsi üzrə postlardan birində saatdar qismində xidmət apardığı zaman şübhəli davranan vətəndaşı müşahidə edərkən onun özünü yandırmaq istədiyini görüb və dərhal qarovul rəisinə məlumat verib. Qarovul rəisi gizir Bahadur Abbaszadə baş vermiş hadisə barədə Daxili İşlər Nazirliyinin inzibati binasının mühafizəsi üçün təyin edilən polis əməkdaşını məlumatlandırıb, şübhəli şəxs saxlanılaraq təhvil verilib.

Biz də, öz növbəmizdə, ayıq-sayıq xidmətlə fərqlənən hərbçilərimizə bundan sonrakı xidmətlərində uğurlar arzulayırıq.

**baş leytenant Nigar Ağayeva**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### ABŞ Ordusu təkmilləşdirilmiş "Black Hawk" helikopterini sınaqdan keçirib

ABŞ Hərbi Hava Qüvvələri (HHQ) təkmilləşdirilmiş UH-60V "Black Hawk" helikopterini sınaqdan keçirib. Ordu.az xəbər verir ki, bu barədə HHQ-nin mətbuat xidməti məlumat yayıb.

Sınaqların məqsədi helikopterin standartlara cavab verib-vermədiyini nümayiş etdirmək və qiymətləndirmək olub.

UH - 60V "Black Hawk" əvvəlki variantlarla demək olar ki, eynidir, lakin indi onun



istismarını asanlaşdıran bir neçə texnoloji yenilik var. Təkmilləşdirilmiş kokpitdən başqa, helikopter indi GPS naviqasiya məlumat bazası, təkmil uçuş planlaşdırması və missiya qabiliyyəti ilə təchiz olunub.

## Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **istefada olan mayor Məqsəd Qasımovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin komandanlığı MAXE əsgər Şahin İsmayılova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000